# Ermənistandan qovulmuş bütün azərbaycanlılar və onların varislərinin vətənlərinə qayıtmaq hüququ var

Qayıdış Konsepsiyası indiki Ermənistan ərazisindən zorla çıxarılan azərbaycanlıların geriyə qayıtması üçün icmanın həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi çərçivəni müəyyən edir. Bundan başqa, konsepsiyada o da bildirilir ki, qərbi azərbaycanlıların könüllü şəkildə, təhlükəsiz şəraitdə və ləyaqətlə öz yurdlarına qayıda bilmələri üçün müvafiq verifikasiya və zəmanət mexanizmi olan, eləcə də hüquqi baxımdan məcburi olan beynəlxalq razılaşma əldə edilməlidir.

Bu barədə Trend-ə müsahibəsində Qərbi Azərbaycan İcmasının mətbuat katibi Ülviyyə Zülfiqar bildirib.

O qeyd edib ki, icma BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı ilə birlikdə, tətbiq olunması mümkün olan bütün beynəlxalq standartlar əsasında, eləcə də Azərbaycan hökuməti və Ermənistan hökuməti ilə təmaslar şəraitində qayıdışın detallı planını hazırlamağa çalışacaq.

"İndiki Ermənistan ərazisindən qovulmuş bütün azərbaycanlılar və onların varislərinin öz vətənlərinə qayıtmaq hüququ var. Bu, onların haqqıdır. Son 200 ildə başımıza gələn müsibətlərdən dolayı İcma təhlükəsizlik məsələlərində əlbəttə ki, Ermənistan hökumətinə etibar etmirik. Bu təbiidir. Ona görə də konsepsiyamızda da qeyd olunur ki, müvafiq mandatla beynəlxalq təhlükəsizlik missiyası qayıdış olacaq ərazilərə yerləşdirilməlidir. Həmçinin missiya bizim - yəni qərbi azərbaycanlıların etimad göstərdiyi ölkələrin qüvvələrindən ibarət olmalıdır. İcmamız da missiyanın mandatının formalaşdırılması və idarə edilməsi üzrə formatda maraqlı tərəf kimi təmsil olunmalıdır", - deyə o vurğulayıb.

Azərbaycan.- 2023.- 31 yanvar.- S.12.